

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 126 (21.027)

4 iyul 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## İnformasiya-kommunikasiya texnologiyalarından tədrisdə istifadəyə həsr olunmuş beynəlxalq simpozium

***Naxçıvan Dövlət Universitetində "Elektron Naxçıvan – 9: informasiya-kommunikasiya texnologiyaları və tədris" mövzusunda beynəlxalq simpozium keçirilmişdir. Əvvəlcə simpozium iştirakçıları elektronika, memarlıq və rəsm sərgilərinə baxmışlar.***

Beynəlxalq simpoziumu giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı sahəsində ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən bəhs etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə regionda bu sahədə qazanılan uğurlar barədə danışmışdır. Vurğulanmışdır ki, Naxçıvan Dövlət Universitetində elektron universitet quruculuğu, elm və təhsilin müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi vasitəsilə inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.



Sonra Universitet televiziyasının hazırladığı "Elektron Naxçıvan" adlı sənədli film nümayiş etdirilmişdir.

AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun və Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşları canlı bağlantı vasitəsilə beynəlxalq simpoziuma qoşularaq 2005-ci ildən həyata keçirilən ənənəvi "Elektron Naxçıvan" layihəsinin əhəmiyyətindən və bu layihənin töhfələrindən bəhs etmişlər.

AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli canlı bağlantı zamanı "Elektron Naxçıvan" hərəkatını Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin milli düşüncə, dövlətçilik təfəkkürü, humanitar və informasiya texnologiyaları siyasətinin vəhdətindən ibarət müstəqil ölkənin inkişafına xidmət edən siyasi modelin bəhrəsi kimi dəyərləndirmişdir.

Son on ildə muxtar respublikada yeni texnologiyaların tətbiqi və informasiya texnologiyaları sahəsində həyata keçirilən layihələrdən bəhs edən Naxçıvan Muxtar Respublikasının rabitə və informasiya texnologiyaları naziri Rövşən Məmmədov bildirmişdir ki, bu gün muxtar respublikanın telekommunikasiya sisteminin 60 faizini NGN texnologiyasına əsaslanan Yeni Nəsil Telekommunikasiya sistemləri təşkil edir. Hazırda yaşayış ərazilərinin 92 faizində genişzolaqlı internet, 80 faizində simsiz internet xidmətləri göstərilir. Naxçıvanda "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı"nın icrası məqsədilə orta ümumtəhsil məktəblərində hər 13 şagirdə 1 kompüter dəsti olmaqla, 3409 kompüter, 551 elektron lövhə quraşdırılmışdır.

Vurğulanmışdır ki, yüksəksürətli informasiya mübadiləsini təmin etmək məqsədilə fiber-optik telekommunikasiya şəbəkəsinin genişləndirilməsi davam etdirilmiş, muxtar respublikanın optik şəbəkəsi Trans-Asiya-Avropa beynəlxalq fiber-optik magistralına qoşulmuşdur.

Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin şöbə müdiri Zahid Mehdiyev məruzəsində Azərbaycanda İKT-nin inkişaf göstəriciləri barədə məlumat vermişdir. Məruzəçi blokada şəraitində olmasına, magistral informasiya kanallarına çıxış imkanlarının məhdudluğuna baxmayaraq, Naxçıvan Muxtar Respublikasında İKT sektorunun sürətlə inkişafının region ölkələri üçün nümunə olduğunu bildirmişdir.

Türkiyə Cümhuriyyətinin İqdır Universitetinin prorektoru, professor Mehmet Farik Yılmaz iki qardaş ölkənin ali məktəbləri arasında İKT sahəsində bilik və təcrübə mübadiləsinin əhəmiyyətindən danışmış, təmsil etdiyi universitetdə müasir texnologiyalardan istifadə imkanları barədə məlumat vermişdir.

Beynəlxalq simpoziumda Naxçıvan Dövlət Universitetinin tərəfdaşlıq etdiyi müxtəlif ölkələrin elm və təhsil müəssisələri ilə də videobağlantı yaradılmışdır. Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, riyaziyyat üzrə fəlsəfə doktoru Anar Kazımovun təqdimatı ilə Cənubi Koreya Respublikasının Kiber Universitetinin professoru, "LİX" proqramının rəhbəri Skot Jeonq, İspaniyanın Malaqa Universitetinin əməkdaşı, "Erasmus Mundus" layihələrinin koordinatoru Xuan Antonio Martin-Çesa, Rusiya Federasiyasının Uxta Dövlət Texniki Universitetinin prorektoru Emin Yaqubov və başqaları beynəlxalq simpoziuma qoşulmuş, virtual əlaqələrin inkişafı, İKT-nin geniş imkanlarından birlikdə faydalanmaq barədə təkliflərlə çıxışlar etmişlər.

"Elektron Naxçıvan – 9: informasiya-kommunikasiya texnologiyaları və tədris" beynəlxalq simpoziumu İncəsənət fakültəsinin müəllim və tələbələrinin konsert proqramı ilə başa çatmışdır.

**Mehriban SULTAN**

Naxçıvan Muxtar Respublikası – 90

## Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir

***Dünya sivilizasiyasına əvəzolunmaz töhfələr verən 5 min illik şəhər mədəniyyətinə malik Naxçıvanın şərəfli tarixi vardır. Bu torpaq Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan qədim diyarı ələ keçirmək istəyən düşmənlər daim məğlub olmuş, tarixin bütün dövrlərində bu torpağın qəhrəman, igid övladları fatehləri diz üstə çökdürmüş, torpağın bir qarışını da düşmənə verməmişlər.***



XX əsrin əvvəllərində, Naxçıvanın üzərini qara buludların aldığı bir vaxtda yenə öz elinə, obasına, torpağına, milli kökünə bağlı olan Vətən övladları istər hərbi, istərsə də siyasi-diplomatik sahədə bütün mümkün vasitələrdən istifadə edərək qədim yurdumuzu qoruyub saxlamış, onun Azərbaycanın tərkibində qalması, yaşaması, inkişafı üçün zəruri olan muxtariyyət statusunun əldə edilməsinə nail olmuşlar.

Arxivlərdə aparılan araşdırmalardan aydın olur ki, 1920-ci il aprelin 27-də bolşevik Rusiyası Azərbaycanı işğal edəndən sonra Naxçıvan bölgəsində ermənilər daha da fəallaşmış, qədim diyarın Ermənistana birləşdirilməsi üçün cəhdlər göstərilmişdir. Həmin dövrdə Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında həll olunmamış məsələlərin nizama salınması məqsədilə Moskva müqaviləsinin ardınca 1921-ci il oktyabrın 30-da Qars müqaviləsinin imzalanması ilə Naxçıvanın sərhədləri bir daha dəqiqləşdirilmişdir.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev tariximizin qaranlıq qatlarına aydınlıq gətirərək qeyd etmişdir ki, 1921-ci ildən 1924-cü ilədək, yəni muxtariyyət statusundan muxtar respublikanın təşkilinə kimi ölkə daxilində çoxsaylı müzakirələr getmişdir. Azərbaycanın daxilində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti – geosiyasi şəraiti ilə bağlı olmuşdur. Naxçıvanın Azərbaycandan aralı düşməsi, heç bir sərhədə malik olmaması onun inzibati idarəçiliyini qəza və ya rayon hüquqlarında təşkil etməyə imkan vermirdi. 1923-cü il iyunun 16-da Naxçıvan "muxtar diyar" (ölkə) adlandırılmışdır. 1924-cü il yanvarın 4-də Zaqafqaziya MİK Naxçıvan diyarını Naxçıvan MSSR elan etmişdir. 1924-cü il fevralın 9-da Azərbaycan MİK-in Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında dekret qəbul etmişdir.

Müasir dövrdə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1995-ci il noyabrın 12-də qəbul edilmiş ilk milli Konstitusiyada Azərbaycanın dövlət sistemində özünəməxsus yer tutan Naxçıvan Muxtar Respublikasının statusu müasir, yeni şəraitə uyğun olaraq dəqiq şəkildə müəyyən edilmişdir. Yeni Konstitusiyada "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlət, Azərbaycan Respublikasının ayrılmaz hissəsi" hesab edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası hazırlanmış və 1998-ci il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunmuşdur. Konstitusiyanın birinci maddəsində göstərilir: *"Naxçıvan muxtar dövləti Azərbaycan Respublikasının tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır... Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir".*

Naxçıvan Muxtar Respublikasının inkişaf tarixinə nəzər salanda bir daha görürük ki, 1969-cu ildən sonra muxtar respublikada tikinti-quruculuq işlərinin həcmi ölçüyəgəlməz dərəcədə artmışdır. Həmin illərdə Azərbaycanın rəhbəri kimi ulu öndər Heydər Əliyevin Naxçıvana hər gəlişi mühüm obyektlərin, yaşayış sahələrinin istifadəyə verilməsi ilə əlamətdar olmuşdur.

Sovetlər Birliyinin dağılması ərəfəsində ulu öndərin Naxçıvana qayıdışı muxtar respublikanı bəlalardan xilas etmişdir. 1990-cı ildə doğma Vətəninə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqilliyi və suverenliyinin əbədiliyi üçün böyük tarixi xidmətlər göstərmişdir. Milli müstəqillik hərəkatında həmişə öndə olan muxtar respublika 1990-1993-cü illərdə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə, bütünlüklə, Azərbaycanın gələcəyi üçün vacib olan çox mühüm tarixi əhəmiyyətli qərarlar qəbul olunmuşdur.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Naxçıvan Muxtar Respublikası dövrün ağır sınağından üzüağ çıxmış, sürətli inkişafın təməli qoyulmuşdur. 1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən cənab Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək muxtar respublikanın üzləşdiyi problemlərin uğurla həllinə başlamışdır. Sənaye dinamik inkişaf etdirilir və qürurla deyə bilərik ki, Naxçıvanda bu gün 438 sənaye müəssisəsi fəaliyyət göstərir. Həm də bütün bunlar son 18 il ərzində, muxtar respublika blokada şəraitində olduğu dövrdə yaradılmışdır. Bu, çox böyük nəticədir.

Bu gün muxtar respublikada sahibkarlığa əlverişli şərait yaradılmışdır. Əhalisinin çoxunun kəndlərdə yaşadığı Naxçıvanda aqrar sahənin inkişafına da diqqət yetirilir, kənd əhalisinə güzəştli kreditlər verilir. Əhalinin qaz və elektrik enerjisinə olan tələbatı tam ödənilir. Səhiyyə müəssisələrinin tikintisi və yenidən qurulması prosesi uğurla davam etdirilir. Təhsilin inkişafı da prioritet sahədir. Yeni məktəb binaları tikilir, mövcud məktəblər əsaslı təmir edilir, müasir informasiya-kommunikasiya vasitələri ilə təchizat yüksək səviyyədə aparılır.

Naxçıvan qədim mədəniyyət mərkəzi, tarixi abidələr diyarıdır. Bu mənada tarixi-mədəniyyət abidələrinin bərpası və müasir obyektlərin tikintisi xüsusi zövqlə həyata keçirilir. Kitabxanalar, muzeylər, yaşayış evləri yenidən qurularaq istifadəyə verilir. Naxçıvan şəhərində, o cümlədən muxtar respublikanın rayon mərkəzlərində, hətta ucqar dağ kəndlərində aparılan möhtəşəm abadlıq-quruculuq işləri hər bir insanda fəxarət hissi yaradır.

Ölkə Prezidenti cənab İlham Əliyev bu il aprelin 7-8-də Naxçıvan Muxtar Respublikasına səfəri zamanı qədim diyarımızda əldə edilən bu uğurları yüksək qiymətləndirərək demişdir: ***"...Son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm".***

Bu uğurlar bir tərəfdən naxçıvanlıların Vətən sevgisi, işgüzarlıqları, Heydər Əliyev siyasi kursunu sədaqətlə davam etdirmələri, dövlət başçısının tapşırıq və tövsiyələrini inamla yerinə yetirmələri nəticəsində qazanılırsa, digər tərəfdən qədim diyarın muxtariyyətinin qorunub saxlanılmasından irəli gəlir. Göründüyü kimi, Naxçıvanın muxtariyyəti onun ərazisinin qorunub saxlanılmasında, ana yurdumuz Azərbaycanın tərkibində əbədi yaşamasında müstəsna rol oynamışdır. Muxtariyyət Naxçıvana qarşı daim ərazi iddiaları ilə çıxış edən ermənilərin əsassız tarixi-siyasi iddialarına vurulmuş ən güclü zərbə olmuşdur. Bundan başqa, qədim diyarımızın yüksəlişinə, inkişafına əsaslı zəmin yaratmışdır.

Məhz buna görə də ölkə başçısı 2014-cü il yanvarın 14-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamış, 2014-cü il Naxçıvanda "Muxtariyyət ili" elan edilmişdir. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar təsdiq olunmuş Tədbirlər Planında 2014-cü ildə muxtar respublikanın idarə və təşkilatlarında, elm və təhsil müəssisələrində bir sıra tədbirlərin hazırlanıb həyata keçirilməsi nəzərdə tutulmuşdur. Artıq bu günədək muxtar respublikada bir sıra silsilə tədbirlər keçirilmişdir. Həmin tədbirlərin ən möhtəşəmi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə bu il aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim olmuşdur.

***Bu gün Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi çərçivəsində Azərbaycanın və bir sıra ölkələrin elmi ictimaiyyətinin tanınmış nümayəndələrinin iştirakı ilə daha bir möhtəşəm tədbir keçiriləcəkdir. "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusuna həsr olunmuş beynəlxalq konfransda qədim diyarımızın muxtariyyət tarixinə, onun keçdiyi şərəfli yola, muxtar respublikanın sosial-iqtisadi inkişafına, mədəniyyət, elm və təhsil sahəsində qazanılan uğurlara nəzər yetiriləcəkdir.***

**Rauf ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** ***...O vaxt xalqımıza qarşı ədalətsizlik də edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Bu, böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məskənlərinin adları Azərbaycan adları idi. Ona görə bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda böyük türk dünyası iki yerə bölünürdü. Bu, ədalətsizlikdir, bu, sağalmayan yaradır.***

# Naxçıvanın blokadası Zəngəzurun Ermənistana verilməsi ilə başlandı

## *Bununla da, Naxçıvana muxtariyyət statusunun verilməsi zərurətə çevrildi*

***Əzəli və tarixi Azərbaycan torpağı olan, hazırda indiki Ermənistanın cənub-şərqində yerləşən Zəngəzur ərazisi qədim zamanlardan Azərbaycan xalqına məxsus Göyçə gölü hövzəsini və Azərbaycan Respublikasının cənub-qərb hissəsini əhatə edir. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları ilə sərhədlənən, qədim zamanlardan Azərbaycan ərazisində yaranan müxtəlif dövlətlərin tərkibində olan və əhali tərəfindən Zəngəzur mahalı kimi tanınan bu ərazinin bir hissəsi xanlıqlar dövründə Qarabağ, bir hissəsi Naxçıvan, qalan hissəsi İrəvan xanlıqlarının tərkibində olmuşdur. Şimali Azərbaycanın Rusiyaya ilhaq edilməsindən sonra digər Azərbaycan torpaqları kimi əhalisi ancaq Azərbaycan türklərindən ibarət olan Zəngəzura da İrandan və Osmanlı imperiyasından çoxlu erməni köçürülmüş, bununla da, ərazidə onların sayı süni surətdə artırılmışdır.***

1829-cu ildən Qarabağ əyalətinin tərkibində olan Zəngəzur ərazisində 1861-ci ildə Rusiya imperatorunun fərmanı ilə eyniadlı qəza – Zəngəzur qəzası yaradılmışdı. Ancaq bir neçə il sonra (1867, dekabr) Yelizavetpol (Gəncə – F.S.) quberniyası yaradılarkən Zəngəzur qəzası onun tərkibinə verilmişdi. 1917-ci il Qafqaz təqviminin məlumatına görə, həmin vaxt Zəngəzurun ərazisi 6742,92 kvadratverst idi. 1918-ci ildə Zəngəzur qəzasında mövcud olan 222 yaşayış məskənindən 116-sı azərbaycanlılara məxsus idi. 1920-ci ildə Zəngəzurda yaşayan 224197 nəfər əhalinin 70 faizini Azərbaycan türkləri təşkil edirdi. Ermənilərin etnik təmizləmə siyasəti nəticəsində bütün Ermənistan Respublikasında olduğu kimi, ona sovet hökuməti tərəfindən "hədiyyə edilən" Zəngəzurda da əhalinin deportasiyası öz mənfi nəticələrini vermiş, orada azərbaycanlılar yaşayan kəndlərin sayı 1931-ci ildə 87-yə, 1986-cı ildə 40-a enmişdi.

Rusiya imperiyası dağıldıqdan sonra XIX yüzillik boyu buraya köçürülən və yaranmış vəziyyətdən istifadə edən ermənilər 1917-ci ilin martından 1918-ci ilin mayınadək Zəngəzur ərazisində türk-müsəlman əhaliyə qarşı böyük qırğınlar törətmiş, yüzlərlə yaşayış məskənini dağıtmış, əhalini deportasiya etmişlər. Bu qırğınlar 1918-ci il mayın sonlarında Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin yaranmasından sonra da davam etdirilmişdir. Təkcə 1918-ci ildə Zəngəzurun 115 kəndi yerləyeksan edilmiş, əhalisinə divan tutulmuşdu. Bu qırğınlar zamanı 3257 kişi, 2776 qadın, 2196 uşaq qətlə yetirilmiş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdı. Beləliklə, bütün qəza üzrə 10 min 68 nəfər Azərbaycan türkü öldürülmüş və şikəst edilmiş, 50 mindən çox adam didərgin düşmüşdür.

23 noyabr 1919-cu ildə Tiflisdə ABŞ nümayəndələrinin təşəbbüsü və vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında imzalanan 5 bənddən ibarət müqavilənin 2-ci bəndində nəzərdə tutulurdu ki, "Ermənistan və Azərbaycan hökumətləri Zəngəzura gələn yolların düzəldilməsi və açılması, onlarla dinc hərəkətlər üçün təsirli tədbirlər görülməsini razılaşdırırlar". Müqavilənin digər bəndlərinin şərtlərinə də əməl edərək Azərbaycan öz qoşunlarını Zəngəzurdan çıxarmış, Ermənistan isə əksinə, buraya əlavə qoşun hissələri gətirmiş və yerli müsəlman-türk əhaliyə qanlı divan tutmuşdur. Ümumiyyətlə, 1920-ci ilədək törədilmiş milli qırğın və terror hesabına Azərbaycanın 9800 kvadratkilometr ərazisi Ermənistan tərəfindən zəbt edilmişdir. O dövrdə Yeni Bəyazid qəzasının Basarkeçər mahalının, İrəvan qəzasının Vedibasar mahalının, Gəncə quberniyasının Zəngəzur qəzasının bir hissəsi Ermənistanın əlinə keçmişdir.

Xalqımıza qarşı ermənilər tərəfindən törədilən soyqırımlar Ermənistanda sovet hökuməti qurulduqdan sonra da davam etdirilmiş və Sovet Rusiyasının Zəngəzur məsələsi ilə əlaqədar siyasəti büsbütün dəyişmişdir. Belə ki, 1920-ci il aprelin 30-da Azərbaycan SSR XXİK-in müavini M.D.Hüseynov tərəfindən Ermənistan hökumətinə nota göndərilmişdir. Notada 3 gün müddətində "1) Qarabağı və Zəngəzuru öz qoşunlarından təmizləmək; 2) öz sərhədlərinə çəkilmək; 3) millətlərarası qırğına və ədavətə son qoymaq" tələblərini özündə əks etdirən maddələr var idi. Ancaq A.Mikoyan və digər erməni liderlərinin "Zəngəzurun, Naxçıvanın və Qarabağın Ermənistana verilməsi ermənilərin Sovet hakimiyyətinə inamını və rəğbətini artıra bilər" ideyasından çıxış edərək həmin ilin dekabrında Azərbaycan sovet hökuməti Zəngəzurun böyük bir hissəsini Ermənistana "bağışlamağa" məcbur edilmişdir. Bunun ardınca, 10 avqust 1920-ci ildə Rusiya K(b)P Qafqaz Bürosunun qərarı ilə Azərbaycan rəhbərliyinin razılığı olmadan Qarabağ və Zəngəzur "mübahisəli ərazilər" elan olunmuşdur.

Məlumdur ki, sovet liderlərindən Azərbaycana öz düşmən münasibətilə seçilən və bunu "mən Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm" şəklində dilə gətirən İ.Stalin tərəfindən "Azərbaycanın fatehi" kimi dəyərləndirilən, əslində isə xalqımızın qəddar düşməni olan Serqo Orconikidzenin "məlum siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər" ideyasından çıxış edən Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında 10 avqust 1920-ci ildə İrəvan şəhərində müqavilə imzalanmışdır. Ermənistan üçün bir sıra güzəştlərə yer verilən bu müqavilənin şərtlərinə əsasən, qədim Azərbaycan torpaqları olan Naxçıvanın və Zəngəzurun ermənilərə verilməsi nəzərdə tutulurdu. Ona görə də Nəriman Nərimanov Zəngəzurun və Naxçıvanın Ermənistana verilməsinə qarşı qətiyyətlə çıxış etmiş, hətta bununla əlaqədar sovet hökumətinin banisi V.İ.Leninə məktub yazmış, məktubda həmin məsələni xüsusi vurğulayaraq bildirmişdi ki, "Azərbaycanın tamamilə mübahisəsiz ərazilərinin Ermənistana güzəştə gedilməsi mümkün olmayan səhvdir".

Cənubi Qafqazda Sovet hakimiyyəti bərqərar olduqdan sonra vaxtilə daşnak S.Şaumyan və A.Mikoyan tərəfindən Zəngəzurla əlaqədar hazırlanmış planın gerçəkləşdirilməsinə, başqa sözlə desək, ərazidə etnik təmizləmə siyasətinin həyata keçirilməsinə, azərbaycanlıların deportasiya edilmələrinə, müxtəlif bəhanələrlə həbs olunmalarına, güllələnmələrinə, sürgünə məhkum olunmalarına, beləliklə, bölgədə onların sayının azalmasına, ermənilərin sayının süni surətdə artırılmasına nail olmağa başlamışlar.

Zəngəzurun yuxarı və qərb hissələrində möhkəmlənən və bütün bunlarla kifayətlənməyən ermənilər Zəngəzur mahalına məxsus digər torpaqların da ələ keçirilməsi üçün canfəşanlıqla çalışır, bunun üçün hər cür vasitələrə əl atırdılar. Buna görə də onlar Zəngəzurun cənub hissəsini ələ keçirmək üçün məkrli planlar həyata keçirməyə başladılar. Məsələn, həmin vaxt yerli əhali tərəfindən heç bir təşəbbüs olmadığı halda ermənilər Zəngəzurun aşağı hissəsində "Kürdüstan" adlı inzibati ərazi bölgüsü yaradılması fikrini ortaya atmışdılar. Azərbaycan dövlətçiliyi tarixində heç vaxt belə inzibati ərazi vahidi olmadığı halda bu cür qondarma bir inzibati vahidin yaradılması ideyası Azərbaycanda tarixən bir yerdə yaşayan, bir-birləri ilə qohumluq əlaqələrinə girən, bir sözlə, qaynayıb-qarışan Azərbaycan türkləri və kürdlərinin deyil, Azərbaycanı yenicə işğal etmiş və bu ərazilərdə möhkəmlənməyə çalışan Sovet Rusiyasının və onun himayə etdiyi ermənilərin mənafeyinə xidmət edirdi. Ancaq Azərbaycan xalqının inadlı müqaviməti sayəsində bu ideya gerçəkləşdirilə bilmədi.

Zəngəzuru ələ keçirdikdən sonra ermənilər orada qədim zamanlardan yaşayan azərbaycanlı əhalini sıxışdırmağa, təqib etməyə, nəticədə, onların deportasiyasına nail olmağa başladılar. Beləliklə, bir sıra Azərbaycan kəndləri ermənilər tərəfindən ələ keçirildi: Zaqafqaziya Federasiyası Mərkəzi İcraiyyə Komitəsinin 1 yanvar 1927-ci il tarixli qərarı ilə Mehri-Cəbrayıl qəzasının 24 kəndi Ermənistana verildi. Ancaq bununla kifayətlənməyən ermənilər bir az sonra, daha dəqiq desək, 20 iyun 1927-ci ildə Zaqafqaziya Federasiyası MİK-in qəbul etdiyi qərarla Zəngəzur qəzasının 1065 desyatin ərazisinin müxtəlif qəzalara aid edilməsi məsələsinin gündəliyə çıxarılmasına nail oldular.

Ancaq bütün bunlar Ermənistanın Azərbaycan torpaqlarını ələ keçirmək sahəsində iddialarını təmin etmirdi. Ona görə də Zaqafqaziya MİK Rəyasət Heyəti 18 fevral 1929-cu ildə onların xeyrinə daha bir qərar çıxardı. Bu qərara görə, Mehridə yeni rayon yaratmaq bəhanəsi ilə Zəngilan rayonunun Nüvədi, Ernəzir və Tuğut kəndləri Ermənistana verildi.

Çox təəssüflər olsun ki, həmin vaxt Zəngilanın başçıları, ona rəhbərlik edən adamlar bu kəndlərin verilməsinə səbəb kimi onların rayon mərkəzindən xeyli aralı olması və müxtəlif səmtlərdə yerləşməsi üzündən onlarla əlaqələrin çətinliyini göstərərək öz əməllərinə haqq qazandırmışdılar. Nəriman Nərimanovun 1921-ci ildə dediyi bir fikri xatırlatmaq yerinə düşər: "Əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti ... millətçilik əhval-ruhiyyəsində olsaydı, inanın ki, Ermənistan Zəngəzuru almazdı".

9 sentyabr 1930-cu ildə Ermənistan SSR ərazisinin yeni inzibati ərazi bölgüsü yaradılarkən, başqa sözlə desək, rayonlaşdırma həyata keçirilərkən burada dörd rayon – Qarakilsə (2 mart 1940-cı ildən Sisyan, ərazisi 1719 kvadratkilometr), Qafan (ərazisi 1245 kvadratkilometr), Gorus (ərazisi 752 kvadratkilometr) və Mehri (ərazisi 664 kvadratkilometr) rayonları yaradılmışdır. Beləliklə, Zəngəzur bir tarixi vilayət kimi ləğv edilmiş və Zəngəzur toponiminin – yer adının rəsmi sənədlərdə istifadə olunmasına son qoyulmuşdur. Bu da son olmamışdır. 1938-39-cu illərdə Ernəzir Nüvədi ilə, Tuğut kəndi isə ermənilər yaşayan Astazurla birləşdirilmişdir. Birləşdirilən Ernəzir və Tuğut kəndlərinin əhalisi zorla köçürülərək Nüvədi, Əldərə və Astazur kəndlərində yerləşdirilmişdir. 1969-cu ilin mayında isə ermənilər öz istəklərinə doğru daha bir addım atmışlar. Həmin vaxt haqqında bəhs olunan qərar 26 noyabr 1968-ci ildə Azərbaycan KP MK-nın Bürosunda müzakirə edilmiş və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 7 may 1969-cu il tarixli qərarı ilə hər üç kəndin (Ernəzir, Nüvədi, Tuğut) Ermənistana verilməsi aktı təsdiq olunmuşdur. Bununla da, 18 min hektardan çox Azərbaycan torpağı ermənilərə "hədiyyə edilmişdir".

SSRİ-nin dövlət aparatında mühüm vəzifələr tutan ermənilərin müxtəlif üsullarla göstərdiyi təzyiq nəticəsində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti adıçəkilən qərarı ilə 5 may 1938-ci ildə Azərbaycanın iki min hektardan çox torpağının, o cümlədən Zəngəzur bölgəsinə daxil olan Laçın rayonundakı Qaragöl yaylağının, Qubadlıda Çayzəmin ərazisinin, Qazaxda Kəmərli kəndi torpaqlarının bir hissəsinin, Kəlbəcərdə qızıl mədəninin və sair Ermənistan SSR-ə verilməsi haqqında qərarı da təsdiq etmişdir. Lakin bəhs etdiyimiz dövrdə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsində çalışan xalqımızın böyük oğlu Heydər Əliyev 1953-cü ildə erməni əsilli Kələntərov və Qabaqçiyan tərəfindən tərtib edilərək Moskvaya təqdim olunmuş xəritələrin saxtalığının üzə çıxarılmasına nail olmuşdur. 1969-cu il iyulun 14-də dahi rəhbər Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə o dövrdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmuşdur. "Mübahisəli" hesab olunan ərazilərdə qanuni iş aparmaq üçün müdrik rəhbər Heydər Əliyev tərəfindən bölgəyə ekspert qrupu göndərilmişdir. 1898 və 1903-cü illərdə tərtib olunmuş xəritələr Ermənistan nümayəndə heyətinə təqdim olunmuş və 1968-ci ildə mərkəzə təqdim edilən xəritənin ermənilər tərəfindən saxtalaşdırıldığı bildirilmişdir. Bununla da, iki min hektardan çox Azərbaycan torpaqlarının Ermənistana verilməsinin qarşısı ulu öndər Heydər Əliyev tərəfindən qətiyyətlə alınmışdır.

Zəngəzurun və onun ətrafındakı torpaqların ermənilərə "hədiyyə edilməsi" və bunun nəticələri ilə əlaqədar akademik Ramiz Mehdiyev yazır: "Sovet hakimiyyəti illərində Ermənistanın özünə Azərbaycanın tərkibinə daxil olan geniş torpaq sahələri verilmişdir. Ermənistanda Sovet hakimiyyəti qurulandan çox keçməmiş, 1920-ci ilin dekabrında Zəngəzur Ermənistana verildi. İki ildən sonra isə artıq "erməni Zəngəzuru"na əlavə torpaqlar verildi. Azərbaycan SSR Xalq Torpaq Komissarlığı tərəfindən 1922-ci il oktyabrın 22-də hazırlanmış arayışda məlumat verilirdi: "Azərbaycan SSR-in bütün ərazisi 7 milyon 989 min 105 desyatin təşkil edirdi. Göstərilmiş ümumi sahədən: a) Qazax qəzasından Ermənistana 379 min 984 desyatin torpaq verilmişdir; b) keçmiş Zəngəzur qəzasından Ermənistana 405 min desyatin torpaq verilmişdir".

1929-cu il fevralın 18-də tarixən Azərbaycan torpağı olan Zəngəzurun İranla sərhədə çıxan sonuncu parçası Ermənistana verilmişdir. Zaqafqaziya MİK-in 1929-cu il 18 fevral tarixli qərarı ilə aran Qarabağın əraziləri – Azərbaycan SSR Cəbrayıl qəzasının Nüvədi, Eynadzor və Tuğut kəndləri, həmçinin Ordubad qəzasının Kərkivan kəndi və Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verilmiş və əhalisi azərbaycanlılar olan yeni "erməni" torpaqlarında süni yolla bu vaxtadək mövcud olmayan Ermənistan SSR-in Meğri qəzası yaradılmışdır. Beləcə, Naxçıvanın Azərbaycanın böyük hissəsindən ayrılması və türk dünyasının içində süni coğrafi sədd yaradılması başa çatdırılmışdır. Elə həmin qərarla Naxçıvanın digər kəndləri – Qurdqulaq, Horadiz, Xaçik, Ağbin, Ağxaç, Almalı, Dağalmalı, İtqıran, Sultanbəy Ermənistana verilmişdir. Beləliklə, 1933-cü il üçün Naxçıvan muxtariyyətinin ərazisi Qars müqaviləsi ilə müəyyən olunmuş əvvəlki 5988 kvadratkilometrdən 5329,6 kvadratkilometrədək azalmışdır.

***Yekun olaraq deyə bilərik ki, qədim Azərbaycan torpağı olan Zəngəzur mahalının böyük bir hissəsinin ermənilər tərəfindən 1918-ci ildən başlayaraq işğal edilməsi, 1920-ci və sonrakı illərdə sovet rəhbərliyi tərəfindən beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistana verilməsinin rəsmiləşdirilməsi ilə Ermənistan SSR Xalq Komissarları Sovetinin 20 iyul 1921-ci il tarixli qərarı ilə Ermənistan SSR-in tərkibində Zəngəzur qəzası yaradılmışdır. Nəticədə, 44-45 km enində torpaq zolağı (bu zolağın 25 kilometri Nüvədi kəndinin ərazisindən keçirdi və 8 avqust 1991-ci ilə – Nüvədinin işğalına qədər ermənilərin orada əl-qol açmasına imkan verilmirdi) cənuba – Araza doğru uzanaraq Naxçıvan bölgəsini – Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının əsas ərazisindən ayrı saldı, bu bölgə ilə əlaqə çətinləşdi. Zəngəzurun bir hissəsinin ermənilərin əlinə keçməsi ilə Azərbaycan iki yerə böləndü, onunla Türkiyə arasında əlaqə pozuldu, torpaqlarımızın sonrakı işğalı üçün yeni zəmin və şərait yaradıldı. Bununla da, əslində, XX yüzilliyin əvvəllərindən Naxçıvanın blokada şəraitində yaşamasının əsası qoyuldu, bu bölgəyə muxtariyyət statusunun verilməsi zərurətə çevrildi.***

**Fəxrəddin SƏFƏRLİ**
*AMEA-nın müxbir üzvü*


Ağbulaq kəndindən görünüş

# Bir vaxt vardı, heç nə yox idi

*Həmkarım Elxan Yurdoğlunun bu başlıq altında yazdığı silsilə yazıların sırasına birini də mən əlavə etmək istədim.*

Bu gün hər bir qələm sahibi hər hansı bir mövzu haqqında yazarkən, adətən, girişdə regionumuzda görülən işlər, yaradılan gözəlliklər, salınan yaşıllıqlardan bəhs edir. Bunun gerçəklik olduğunu isə oxucularımız hər an rastlaşdıqları yaşıl sərvətə heyranlıqları ilə bildirir və bu gözəlliyin müəllifi olduqları üçün onun qədrini də bilməyə çalışırlar. Bu istək daha çox yaşlı nəsildə hiss olunur. Yaradılanları qorumaq, gözəlliyin qədir-qiymətini bilmək, yaşıllıqları artırmaq onlara daha çox zövq verir. Bütün bunlar ölkə Prezidenti və muxtar respublika rəhbəri tərəfindən həyata keçirilən tədbirlərin, qəbul olunan dövlət proqramlarının, reallaşdırılan irimiqyaslı layihələrin bəhrəsidir. Bəs əvvəllər, lap elə sovetin vaxtında ağac əkilib, bağ salınmırdımı? Əgər ağac əkilirdisə, onda niyə kəndlərimizdə meyvə ağacları, bağ sahələri barmaqla göstərilirdi. Bu sualı dünyanın gərdişini yormuş ahıllara verdim, müxtəlif cavablar aldım. Diqqətimi çəkən o ahılların indiki dövrana – bolluğa, ucuzluğa görə ağızdolusu şükür etmələri oldu. Bir də həmişə görürəm ki, yaşlılar daha çox qədirbiləndirlər. Həmişə keçmişin həsrətilə yaşayan bu insanlarla söhbətlərim ürəyimdəki suallara cavab olur sanki. Cavabı məlum sualların məndə yaratdığı təssüratla bu yazını yazmağa başladım.

Acı xatirələri şirin uşaqlıq ömrünə qarışan ahıllarla söhbətim zamanı onlardan birinin dediklərini olduğu kimi oxuculara çatdırmaq istəyirəm. Çünki oxuyacaqlarınız "biri vardı, biri yoxdu" cümləsi ilə anladılan keçmişimizdə kəndlərimizdə nə vardı, nə yoxdu, onu sizə izah edəcək...


Ağbulaq İstirahət Mərkəzi

Yetmiş yaşını haqlamış ahıllardan birinin dedikləri:

– Uşaqlığımız kəndin kasad vaxtına düşmüşdü (hərçənd ki, sovet dönəmində elə bütün kəndlərin kasad vədəsi olub). İndi küçələrə, bağçalara tökülüb gedən meyvəyə belə həsrət idik. Çünki yolu-yolağası yerində olmayan kəndin seli-suyu da yox idi. Ağac əkən, bar götürən barmaqla sayıldığından hər kəsin həyətində barlı-bəhərli meyvə ağacları olmazdı. Gərək ağac olaydı ki, meyvəsi də yeyiləydi. Ona görə də kəndimizə aran yerlərdən maşınlarda, bəzən isə at-ulaq arabasında meyvə gətirərdilər. Nənəm demiş, girvənkəsi od qiymətinə olan gilasın, gilənarın, əriyin üzünü göründə toy-bayram edərdik. Səbətlərə yığılıb adamın üzünə gülən o gilasdan, gilənardan dadmaq üçün nə oyunlardan çıxardıq. Həmin "vüsal dəmi" bizdən bəzən çox-çox uzaq olurdu. Çünki dədəmiz-nənəmiz çölbayır işində olduğundan istəyimizi ancaq meyvəsatanın üzünə gülümsəməklə büruzə verə bilirdik. Evdə olanda isə bəzən pulları olmadığından, bəzən də satılan meyvəni "bəyənmədiklərindən" bizim də əlimiz hər yerdən üzülər, ümidlərimiz puça çıxardı. Ancaq uşaq tamahı onu öz dalınca hara desən, aparar, ayaqyalın olsa belə. Biz də günün istisində elə bu istəklə gilassatanın yanınca qaçar, bəzən isə ona arzulamadığı bir xidmət göstərməyə çalışardıq ki, bəlkə, mükafatı bir ovuc gilas ola. Amma bu, çox zəif təsir gücünə malik olduğundan meyvəsatanın üzünü güldürmək bizə həmişə qismət olmurdu. Söz yox, uzaq məsafədən minbir əziyyətlə satmağa gətirdiyi meyvəni bizə paylamayacağını bilsək də, nədənsə, onun üzümüzə gülümsəməsini, bizə mehriban davranmasını elə o gilası yemək qədər arzulayardıq. Satıcı da elə kasıb ata-anamız kimi bizə o gülümsəməyi də çox görərdi.

Kəndi ayaqdan-başa yanbayan addımladığımız satıcının müştərisi olan kəndlilərimizə həsədlə baxardıq. Bəzən onlardan ürəklisi çıxıb o bənzərsiz ləzzəti bizə daddırırdı ki, gözümüz gilassatanın əlində qalmasın. Çəyirdəkli udduğumuz gilasın nə qədər dadlı olduğunu qaş-gözlə bir-birimizə bildirər və sanki dünyanı fəth edirmiş kimi qürrələnərdik. Bəzən isə gilas payımızın bir neçə giləsi ilə kirayə velosiped də sürərdik. Sabah yenə də kəndin ortasındakı "görüş yerinə" yığışar, gələcək satıcı qonağın yolunu həsrətlə gözləyərdik.

Günlərimiz də uşaqlığımız kimi bir-birinə bənzəyirdi. Səhər tezdən çamurlu-palçıqlı dar məhəllə yolları ilə uçuq-söküк məktəb binasında bizi gülərüzlə qarşılayan müəllimlərimizin dərsini dinləyər, dərsdən sonra, günorta isə quzu otarmağa, dağda-dərədə dərs oxumağa yollanardıq. Qaş qaralana kimi ev üzü, süfrə üzü görməzdik. Yeməyimiz heybəmizə qoyulmuş bir lavaş dürməyi olardı. Ən çox sevdiyimiz mövzu isə özümüzdən böyüklərin əsgərlik həyatı ilə bağlı söhbətlərini dinləmək idi. Yoldaşlıq etdiyimiz böyüklər bizə başlarına gələn hadisəni bəzəkdüzəyi ilə nağıl edər və özünü o hadisənin qəhrəmanı kimi tanıdardı. Biz isə onlara can-dildən inanar, heybəmizdəki "nahar yeməyindən" bəzən onlara da pay verərdik.

Bəzən isə qəpik-qəpik yığıb manat pula çevirdiyimiz "var-dövlətimizdən" danışar, kəndə kino gələndə o kinoya hamıdan əvvəl gedəcəyimizi fəxrlə bildirərdik. Olanımızqalanımız isə bir-birimizə hörmətimiz, qayğımız, səmimiyyətimiz və sevgimiz idi.

...Günlər, aylar ötdü, satıcılar bir-birini əvəz etdi, o satıcıların yan-yörəsində bir ovuc gilas üçün dəridən-qabıqdan çıxan uşaqlar da böyüdü. Dövran dəyişdikcə kəndlinin kəndi də, həyatı da dəyişdi. Bu günümüzə şükür. Ömrümün yetmişini haqlamışam. Ancaq o günlər necə varsa, o cür xatirimdədir. Gecələr bizi şirin yuxuya vermək üçün analarımızın "biri vardı, biri yoxdu", – deyə başladığı nağılların özündə də heç nə yoxdu o zamanlar. Ancaq arzular vardı, istəklər vardı, bir də xoş günə can atan ürəyimiz vardı... O arzular, o istəklər sanki bu gün üçünmüş. İndi kəndimizdə nə yoxdu ki. Arzularımızda olan yollar, məktəb, meyvə bağları, bolluq, ucuzluq və ən əsası isə yaxşı yaşamaları üçün uşaqlara qayğı var. Şükürlər olsun, indi o qədər bolluqdur ki, yemədən belə, adamın könlü doyur.

Bu gün ən ucqar dağ kəndi olan Ağbulaqda dünyaya göz açıb böyüyən bir məktəblinin həyat tərzinə və onun arzularına bələdçilik etmək üçün elə o uşağın öz dilindən bəzi fikirləri eşitmək kifayət edər:

– Evimizdən internetə qoşulmuş kompüterlə Almaniyada yaşayan dayımla tez-tez əlaqə saxlayıram. Onların evlərini, yaşayış tərzini videogörüntü ilə anama da göstərirəm. Yaşıdlarımla müxtəlif oyunlar oynayır, intellekt səviyyəmin yüksəlməsi üçün məntiqi kitablar oxumağa üstünlük verirəm. Kəndimizdəki Ağbulaq İstirahət Mərkəzinə dincəlməyə gələn məktəblilərlə, tələbə-gənclərlə tanış olur, günümüzün çoxunu onlarla birlikdə keçirməyə çalışırıq. Tətil günlərində mənalı istirahət üçün kəndimizdə yaxşı şərait yaradılıb. Kənd klubu, kitabxanası hər vaxt üzümüzə açıqdır. Kəndin ağsaqqalları burada gənclərlə görüşlər keçirir, bizə Vətənimiz, kəndimiz, tariximiz haqqında bildiklərindən söhbətlər edirlər. Mən Ağbulaq kimi ucqar dağ kəndindən Bakı şəhərindəki məktəblilərdən bir neçəsi ilə internet vasitəsilə əlaqə saxlayıb kəndimizin gözəlliklərini onlara çatdıranda onların bəziləri bizə qibtə edirlər. Çünki kəndimizin həm təbii gözəllikləri, saf suyu, təmiz havası, həm də insan zəhməti ilə yaradılan gözoxşayan mənzərəsi var. Bütün bunları bizə müstəqilliyimiz bəxş edib.

Elə məktəblinin bir kənd haqqında bu fikirləri onu deməyə əsas verir ki, indi nağıllarımız, keçmişdə olduğu kimi, "biri vardı, biri yoxdu" cümləsi ilə deyil, bugünkü bolluğu, firavan həyatı özündə əks etdirən cümlə ilə başlamalıdır ki, gələcək nəsillər də elə o cümlə ilə bu günü bir nağıl kimi öz övladlarına anlatsınlar.

**Şəhla NƏBİYEVA**

# Milli-mənəvi dəyərlərimiz arxeoloji materiallarda

*Milli dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Hər bir xalq kimi, Azərbaycan xalqı da özünəməxsus milli dəyərlər sisteminə sahibdir. Xalqımızın mövcudluğunun əsas göstəricisi olan milli dəyərlər onun ən qiymətli sərvətidir. Milli-mənəvi dəyərlərimizin dəqiq elmi və mənəvi-əxlaqi mahiyyətini açan ümummilli lider Heydər Əliyev deyirdi:* ***"Milli ideologiyamızın əsas tərkib hissəsi bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz".***

Xalqımızın əsrlər boyu yaratdığı zəngin milli irsə yüksək qiymət verən ulu öndər arxeoloji və etnoqrafik tədqiqatları daim diqqət mərkəzində saxlamış, bu sahəyə xüsusi qayğı göstərmişdir. Dahi rəhbər hələ keçmiş sovetlər dönəmində tariximizin qədimliyinin və zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında qərar qəbul etmişdir. Ulu öndərin milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il 13 avqust tarixli bəyanatı problemə təkcə dövlət rəhbərinin yox, həm də müdrik bir el ağsaqqalının münasibəti idi. ***"Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik"***, – deyən ümummilli liderimizin işıqlı ideyaları bu gün də yaşayır və uğurla həyata keçirilir.

Ölkəmizdə, eləcə də muxtar respublikamızda milli dəyərlərimizin öyrənilməsi, təbliği və qorunub saxlanılması istiqamətində mühüm işlər görülür. 2012-ci ilin Naxçıvan Muxtar Respublikasında "Milli dəyərlər ili" elan edilməsi buna bariz nümunədir.

Aparılan elmi araşdırmalar zamanı milli dəyərlərimizi özündə əks etdirən çoxlu arxeoloji material aşkar olunmuşdur. Belə arxeoloji materiallar içərisində qədim təsviri incəsənətimizin tərkib hissəsi olan sənətkarlıq nümunələri mühüm yer tutur. Arxeoloji abidələrimizdən tapılan gil qablar, xəncərlər, heykəllər, bəzək əşyaları, qayaüstü təsvirlər bu tip arxeoloji materiallardan olub, qədim və zəngin mədəniyyətimizi özündə yaşadan sənət nümunələridir.

Naxçıvandakı Qızılburun, II Kültəpə, Nəhəcir, Şahtaxtı və digər abidələrdən tapılan gil qablardan bir qrupunda milli dəyərlərimizlə bağlı maraqlı süjetlər əks olunmuşdur. Qızılburun abidəsindən əldə olunmuş boyalı küpələrdən birinin üzərində həndəsi naxışlarla yanaşı, qarşı-qarşıya dayanmış və qolları dirsəkdən bükülmüş insanlar təsvir edilmişdir. Təsvirdəki insanlardan birinin bir əli yuxarı qalxmış, digər əli isə yanındakı insanın dizi üzərinə qoyulmuşdur. Qobustan qayaüstü təsvirlərində olduğu kimi, bu qabın üzərindəki təsvirdə də xalqımızın qədim milli dəyərlərindən olan yallı rəqsi əks olunmuşdur. Musiqinin milli-mənəvi dəyərlərimizin əsasını



təşkil etməsi haqqında ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Musiqi ayrı-ayrı dillərdə danışan, müxtəlif inkişaf yolları keçmiş, bir-birindən fərqlənən mənəvi və maddi dəyərlərə malik xalqların ən gözəl qarşılıqlı anlaşma və ünsiyyət vasitəsidir".***

Milli dəyərlərimizin öyrənilməsində gil fiqurlar, qədim heykəltəraşlıq sənətini özündə əks etdirən arxeoloji nümunələr böyük əhəmiyyət daşıyır. Bu arxeoloji nümunələr Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da heykəltəraşlıq sənətinin tarixinin qədim olduğunu sübut edir. Onlar içərisində öküz, at, qoç kimi heyvan fiqurları daha çoxdur. I Kültəpə, I Maxta və digər abidələrdən aşkar olunmuş bu tip arxeoloji materiallarda insanların maddi mədəniyyəti ilə yanaşı, mənəvi mədəniyyəti, dini inanclar sistemi də əks olunmuşdur. I Maxta yaşayış yerindən tapılmış Erkən Tunc dövrünə aid at fiquru Anadoludakı Karaz, Boğazqala arxeoloji abidələrindən tapılmış at fiqurları kimi yüksək sənətkarlıq bacarığı ilə düzəldilmişdir.

Qədim heykəltəraşlıq nümunələrimiz içərisində Qızılburun abidəsindən tapılmış Orta Tunc dövrünə aid kişi fiquru diqqəti cəlb edir. Şamaxıdan, Tovuzdan, Ağdamdan tapılmış insan fiqurlarında olduğu kimi, Qızılburun kişi fiqurunda da geyim mədəniyyətimizin bir çox incəlikləri əks olunmuşdur. İnsanın üzü yastı, alnı bir az qabarıq, baş və bədən üzvləri çox mütənasib şəkildədir, paltarlı, çəkməli və papaqlıdır. Bədəni incə xətlərlə qara və qəhvəyi rənglə boyanmışdır. İnsanın sol əli kəmərinin üzərinə qoyulmuşdur. Qızılburun kişi fiqurunun milli dəyərlərimizin öyrənilməsində əhəmiyyəti ondan ibarətdir ki, orada qədim geyim mədəniyyətimizin bəzi xüsusiyyətləri (başmaq, arxalıq) əks olunmuşdur. Hər bir xalqın tarixi ilə möhkəm bağlı olan geyimi onun mədəniyyətini öyrənmək üçün qiymətli mənbələrdəndir. Geyim maddi mədəniyyətin bütün başqa ünsürlərindən daha çox xalqın milli xüsusiyyətini əks etdirməklə sabit etnik əlamətlər sırasına daxildir. Geyim etnogenez məsələlərini aydınlaşdırmaq, xalqlar arasında mədəni-tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini müəyyənləşdirmək işində yardımçı material rolunu oynayır. Xalq yaradıcılığının tarixi, etnoqrafik və bədii xüsusiyyətləri hər zaman öz əksini geyimlərdə tapır. Qızılburun kişi fiquru ilə yanaşı, müxtəlif formalı bəzək əşyaları da geyim mədəniyyətimizlə bağlı müəyyən təsəvvür yaradan arxeoloji materiallardandır.

Milli dəyərlərimizin öyrənilməsində qayaüstü təsvirlər də mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasındakı Gəmiqaya abidəsində çoxlu qayaüstü təsvirlər vardır. Gəmiqaya abidəsində qeydə alınmış maraqlı qayaüstü təsvirlərdən birini canavarın keçiyə hücum etməsi təşkil edir. Bu təsvirdə canavarla keçi arasında uzun dalğalı xətt çəkilərək mənəvi dəyərlərimizin tərkib hissəsi olan inanclar sistemimiz əks olunmuşdur. Təsvirdə bütün türk xalqları arasında geniş yayılan "qurd ağzı bağlanılması" ayininin verildiyi fikrindəyik.

*Aparılan araşdırmalar sonda onu qeyd etməyə əsas verir ki, hər bir arxeoloji material kimi, qədim sənətkarlıq nümunələrimiz də milli və mənəvi dəyərlərimizi, qədim tariximizi özündə ehtiva edən dəyərli materiallardır. Azərbaycan xalqının milli ideologiyası və milli dəyərlərində ümumtürk ruhunun və milliliyinin üstün amil olması bir daha sübut edir ki, Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan diyarı da qədim türk yurdudur.*

**Toğrul XƏLİLOV**
***tarix üzrə fəlsəfə doktoru***

## Maarifləndirici tədbirlər davam etdirilir

***Babək rayonunun Sirab kəndində Babək Rayon İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Səhiyyə Nazirliyinin və Vəkillər Kollegiyasının təşkilatçılığı ilə "Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları" mövzusunda tədbir keçirilib.***

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbiri açaraq bildirib ki, qadınlarımız övladlarımıza düzgün yol göstərən, onu sabahkı cəmiyyətə hazırlayandır. Uşaqları vətənpərvərlik ruhunda böyütmək, milli-mənəvi dəyərləri, sağlam həyat tərzini övladlarına aşılamaq qadının – ananın müqəddəs amalıdır. Ana adı hamı üçün əziz və müqəddəsdir. Ananın övladının qayğısına qalması xalqımıza məxsus ən üstün keyfiyyətlərdəndir. Bu, hər bir Azərbaycan qadınının yerinə yetirdiyi milli missiyasının fövqündə dayanır. Azərbaycan qadınının daşıdığı missiyanı gələcəkdə bu günün qızları yerinə yetirəcəklər. Buna görə də analar müasir Azərbaycan qızını təmkinli, səbirli, mədəni böyütməli, onlara məktəbdə, ictimai yerlərdə milli xüsusiyyətlərimizə uyğun davranmağı aşılamalıdırlar.

Komitə sədri vurğulayıb ki, muxtar respublikanın erkən nikah hallarına az sayda da olsa, rast gəlindiyi yaşayış məntəqələrindən biri də Sirab kəndidir. Sosial hadisə olan erkən nikah ailə məsələlərində ciddi narahatlıq doğuran aktual mövzulardan biridir. Ailə quran tərəflərin yaşlarının rəsmi nikah üçün müəyyən olunmuş yaş həddindən aşağı olması həmin yeni qurulmuş ailədə bir sıra problemlərə gətirib çıxarır. İlk növbədə, həmin ailədə valideynlər öz uşaqlarının hüquqlarını pozurlar. Belə ailələrdə nikahın pozulması, xəstə uşaqların dünyaya gəlməsi, məişət zorakılığı, fiziki-psixoloji çətinliklər kimi hallar daha çox müşahidə olunur. Erkən nikaha sövq olunan gənc qızların təhsili çox zaman yarımçıq qalır. Uşaqların hərtərəfli inkişaf etmiş bir şəxsiyyət kimi formalaşmasında ailə ilə yanaşı, təhsil müəssisələrinin də üzərinə çox məsuliyyətli vəzifələr düşür. Bu mənada məktəblərdə uşaqlarla ünsiyyətdə olan qadın təhsil işçiləri onlarla daim maarifləndirici söhbətlər aparmalı, uşaqları erkən nikah fikirlərindən daşındırmalıdırlar.

Sonra Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədr müavini Arif Ağayevin, Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyevanın çıxışları olub.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara maarifləndirici broşürlər paylanılıb.

Qeyd edək ki, Sirab kənd həkim ambulatoriyasında qadınlar Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin tibbi heyəti tərəfindən həkim müayinəsindən keçiriliblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2014-cü ilin iyun ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi (%) |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1117 | 67,0 | 67,5 | 100,7 |
| 2. | Culfa rayonu | 1165 | 69,9 | 70,3 | 100,6 |
| 3. | Şahbuz rayonu | 332 | 19,9 | 20,0 | 100,5 |
| 4. | Kəngərli rayonu | 582 | 34,9 | 35,0 | 100,3 |
| 5. | Naxçıvan şəhəri | 3057 | 183,4 | 183,5 | 100,1 |
| 6. | Şərur rayonu | 1905 | 114,3 | 114,3 | 100,0 |
| 7. | Babək rayonu | 1373 | 82,4 | 82,4 | 100,0 |
| 8. | Sədərək rayonu | 275 | 16,5 | 16,5 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 26624 | 1597,5 | 1597,1 | 100,0 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **36430** | **2185,8** | **2186,6** | **100,0** |

***Qeyd:*** İyun ayında texniki itki nəzərə alınmaqla daxil olan 36 milyon 430 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 185 min 800 manat olmuş, cəmi 2 milyon 186 min 600 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2014-cü ilin iyun ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 237572 | 23757 | 24994 | 105,2 |
| 2. | Naxçıvan şəhəri | 1064548 | 106455 | 110249 | 103,6 |
| 3. | Kəngərli rayonu | 289869 | 28987 | 29804 | 102,8 |
| 4. | Şərur rayonu | 580074 | 58007 | 59147 | 102,0 |
| 5. | Sədərək rayonu | 92177 | 9218 | 9359 | 101,5 |
| 6. | Culfa rayonu | 354879 | 35488 | 36028 | 101,5 |
| 7. | Ordubad rayonu | 429984 | 42998 | 43374 | 100,9 |
| 8. | Babək rayonu | 616088 | 61609 | 61659 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 4108578 | 410775 | 466452 | 113,6 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **7773769** | **777294** | **841066** | **108,2** |

## "Araz-Naxçıvan" yeni mövsümə hazırlaşır

***Yeni mövsümdən etibarən futbol üzrə Azərbaycan Premyer-Liqasında çıxış edəcək "Araz-Naxçıvan" futbol komandası hazırlıqlarını davam etdirir. İyunun 20-dən Şərur Olimpiya-İdman Kompleksində bir araya gələn "qırmızı-ağlar" gündə iki dəfə məşq etməklə yeni mövsümə hazırlaşırlar. Birinci divizionun qalibi olan komandamız bu uğurunu yüksək liqada da davam etdirmək niyyətindədir. Bir neçə futbolçu ilə yollarını ayıran "Araz-Naxçıvan" Premyer-Liqa təcrübəsi olan oyunçuları komandaya dəvət edib.***



İlk olaraq müdafiə xəttinin güclənməsi üçün bir neçə oyunçu baxışa çağırılıb. Onlardan Kamil Hüseynov və Emin Cəfərquliyevlə birillik müqavilə imzalanıb. Ötən mövsüm uğurlu çıxışı ilə azarkeşlərin etimadını qazanan Emil Balayevin gedişindən sonra qapıçı problemini "qırmızı-ağlar" təcrübəli dəri əlcək sahibi Cahangir Həsənzadə ilə həll ediblər. Həmçinin gənc qapıçı Elçin Sadıqov da komandanın düşərgəsinə qoşulub.

Premyer-Liqada rəqiblərin nisbətən güclü və daha çox dayanıqlı olduğunu bilən baş məşqçi Əsgər Abdullayev yarımmüdafiə xəttinin də güclənməsinə üstünlük verib. Məhz bu amil Hüseyn Axundov, Budaq Nəsirov, Ruslan Nəsirli və Qərib İbrahimovun komandaya dəvət edilməsinə səbəb olub. Elita təcrübəsi olan bu futbolçular eyni zamanda müəyyən yaş qruplarından ibarət Azərbaycan milli komandalarının da şərəfini qoruyurlar.

Ötən mövsüm komanda üzvlərindən David Canıyev və vacib oyunlarda komandaya xal qazandıran Fərid Quliyevi cari ildə daha ciddi mübarizə gözləyir. Onlar indi əsas heyətdə mübarizə aparmaq üçün yeni transfer olunan Vüqar Əsgərovu üstələməyə çalışmalıdırlar. Həmçinin baxışda olan Elnur Abdulov və Vüsal Qarayev də "Araz-Naxçıvan"la müqavilə imzalamağa yaxındır.

Baş məşqçi Əsgər Abdullayev hazırlıqların sürətlə davam etdiyini və qarşıdakı günlərdə futbolçulara veriləcək tapşırıqların bir az da artacağını bildirdi: *"Ötən mövsüm komandanın heyətində çıxış edən bəzi futbolçularla yollarımızı ayırdıq. Onların əksəriyyəti icarə əsasında komandada oynayırdı. Premyer-Liqa birinci diviziondan çox fərqlidir. Buradakı komandaların heyətində daha çox təcrübəli futbolçular top qovurlar və onlarla mübarizə aparmaq heç də asan deyil. Buna görə bir çox futbolçunu baxışa dəvət etmişik. Onların bəzilərinin oyun bacarığının taktikama uyğun olduğunu gördüm və komandada qalmalarını istədim. Bəziləri isə gözlənilənləri doğrultmadı. Qarşıda bizi çətin mövsüm gözləyir. Lakin mən futbolçularımıza inanıram və onların ötən mövsüm olduğu kimi, yenə də Azərbaycan futbolunda yeni səhifə açacaqlarına əminəm. Məşqlərə ara vermədən davam edirik. Qarşıdakı günlərdə məşqin sürətini bir qədər də artırmaq fikrindəyik. Futbolçu təlim-məşq toplanışında nə qədər fiziki və texniki baxımdan çalışarsa, il ərzində bir o qədər komandaya xeyir verər".*

**Eşqin QULİYEV (komandanın yarımmüdafiəçisi)**: *"Yeni mövsümə iddialı hazırlaşırıq. Xüsusilə ev oyunlarında azarkeşlərimizə əsl futbol bayramı yaşatmaq niyyətindəyik. Düzdür, Premyer-Liqada zəif komanda yoxdur, lakin heyətimizdə təcrübəli oyunçular var və yeni transferlərlə daha yaxşı təsir bağışlayacağımıza inanıram".*

**Qərib İBRAHİMOV (komandanın yarımmüdafiəçisi)**: *"Heyətdə bir çox təcrübəli futbolçular var və heç də digər klublardan geri qalmadığımızı düşünürəm. Baş məşqçimizin tapşırıqlarını daim yerinə yetirməyə çalışırıq və yeni mövsümdə iddialı bir komanda kimi meydana çıxacağımıza inanıram".*

**Tərlan QULİYEV (komandanın yarımmüdafiəçisi)**: *"Məşqlərə ara vermədən davam edirik. Hazırda iddialı bir heyətimiz var. İstənilən komanda ilə mübarizə aparmağa hazırıq. Yeni mövsümdə azarkeşlər meydanda daha fərqli "Araz-Naxçıvan" izləyəcəklər".*

✍ **Ceyhun MƏMMƏDOV**

## Səyyar seminar-müşavirə keçirilmişdir

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı və Fövqəladə Hallar nazirliklərinin birgə təşkilatçılığı ilə Şərur rayonundakı Təzəkənddə ot-taxıl biçini dövründə yangın təhlükəsizliyinin təmin edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi ilə bağlı seminar-müşavirə keçirilmişdir.***

Seminar-müşavirədə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Texniki siyasət və aqroservis sektorunun müdiri Zərrab Əfəndiyev, Fövqəladə Hallar Nazirliyinin Yanğın nəzarəti və yanğından mühafizə işinin təşkili bölməsinin rəisi, daxili xidmət kapitanı Mirtaleh Seyidov, Şərur Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Şakir Ağalarov çıxış etmişlər. Çıxışlarda qeyd olunmuşdur ki, seminar-müşavirələrin mütəmadi keçirilməsində əsas məqsəd muxtar respublika ərazisində ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyinin təmin edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, həmçinin strateji əhəmiyyətli məhsulların yanğından qorunması, biçin zamanı yanğın təhlükəsizliyi tədbirlərinin düzgün həyata keçirilməsindən ibarətdir.

Sonda iştirakçılara "Ot-taxıl biçini zamanı yanğın təhlükəsizliyi qaydaları" adlı tövsiyə xarakterli kitabçalar təqdim olunmuş, yanğınsöndürmə balonlarından istifadə qaydaları əyani olaraq izah edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

### Allah rəhmət eləsin

Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva və kollecin kollektivi iş yoldaşları Aynurə və Könül Əliyevalara, ataları **NADİRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Avtomobil Zavodunun direktoru Musa Abdullayev və zavodun kollektivi Vüqar Abbasova, atası **ZAKİRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 580